## Ümumi

Bolt Services AZ LLC, ünvan Bakı şəhəri, Nərimanov rayonu, Mustafa Kamal Atatürk ev 93 qeydiyyat kodu 1503463041 Bolt) “Coca-Cola Yarışması” kampaniyasının təşkilatçısıdır.

Kampaniya 28 Fevral 2025 - 29 Mart 2025 (GMT+4) tarixlərdə baş tutacaq.

Yalnız 18 və ya daha yuxarı yaşı olan Azərbaycan sakinlərii (və ya vətəndaşı olduqları ölkədə tam hüquq qabiliyyətinə malik olanlar) (İştirakçılar) qalib seçilmək imkanına sahib olmaq hüququna malikdirlər.

Kampaniyada iştirak üçün öncədən qeydiyyatdan keçmək şərti tətbiq olunmur.

Tətbiqdə Coca-Cola bannerində yerləşən partnyor restoranlarından Coca-Cola məhsullarından birini sifariş edən istifadəçi kampaniyada iştirak hüququ qazanır.

İstənilən Coca-Cola, Fanta, Sprite və bu məhsullardan birini tərkibində saxlayan kombo menyunu öz səbətinə əlavə etməlidir, daha sonra istifadəçi bu məhsullardan minimum birinin daxil olduğu sifarişini tamamlamalıdır.

Bolt Services AZ LLC işçiləri və onların ailə üzvləri kampaniyada iştirak hüququna malik deyillər.

Bu kampaniya lotoreya və ya şans oyunlarının hər hansı bir növü deyil.

## Mükafat

Bolt tətbiqində Kampaniya Qalibi seçilən iştirakçılar növbəti 2.2 müddəasında qeyd olunduğu kimi hədiyyə ilə mükafatlandırılacaqlar.

Mükafat: Səyahət kuponu

Mükafatlar dəyişdirilə və ya əvəzoluna bilməz və Bolt heç bir halda mükafat xərclərini geri ödəməklə mükəlləfiyyətli deyildir.

Qalib şəxs üçün mükafatla bağlı hər hansı bir gizli rüsüm tətbiq olunmur.

Bir iştirakçının kampaniya müddətində  yalnızca bir dəfə qalib olma şansı var.

## Qalibin seçilməsi

Kampaniyanın qalibi seçilən iştirakçı mükafatı 2025-ci il Yanvar ayının sonunadək təhvil alacaq.

Qaliblər  3.1.2 bəndində qeyd olunan tələblər uyğunluğunda Bolt-un seçim prosesinə əsasən təyin olunacaq.

Bolt Food Coca-Cola bannerində qeyd olunan partnyor restoranlarından ən az bir Coca-Cola məhsulu olan ən çox sifarişi verən istifadəçi

Müddəa 1.5-də qeyd olunan məhsullar hər sifarişdə ən az bir dəfə olmaqla yerləşdirilə bilər. Bir istifadəçinin verə biləcəyi sifariş sayında məhdudiyyət yoxdur. İştirakçının Coca-Cola məhsulu ilə tamamladığı hər sifariş bir müraciət olaraq hesablanır.

Qaliblər 15 aprel 2025 (GMT +4) tarixdə blogpost vasitəsilə elan olunacaq.

Hər hansı istifadəçiyə göndərilən bildirişin itməsinə, qarşısının alınmasına və ya potensial qalibə bildirişin çatmamağına görə Bolt məsuliyyət daşımır. Qaliblə ilk mesajin göndərildiyi tarixdən etibarən 10 kalendar günü ərzində əlaqə saxlamaq və ya ondan cavab almaq mümkün olmadıqda Qalib mükafatdan məhrum olunmuş hesab olunacaq.

Kampaniya ilkin qalib mükafatdan məhrum olduqda Bolt başqa qalib seçmək hüququna malikdir.

Bolt qalibdən əlavə təsdiq almadan qalibin adını Bolt-un və partnyorun bloqunda, Bolt-un veb saytinda, ictimaiyyətlə əlaqələr, mətbuat  kommunikasiya kanallarında, email və digər sosial media kanallarında paylaşmaq hüququna malikdir.

**Qadağan olunmuş davranışlar**
**İştirakçının Bolt-a şəffaf olmayan hər hansı fırıldaqçı, etik olmayan və qanunsuz davranışla qəsdən və qəsdən olmadan məşğul olaraq kampaniyadan sui istifadə etməsi və aldatması**
**İştirakçının Bolt-a yanlış və aldadıcı məlumat təqdim etməsi (yaş, hüquqi qabiliyyət və s)**
**İştirakçının hər hansı material göstərməsi və yayması (birbaşa və ya dolayı yolla . məs referral linklərlə və ya digər media kanallarından istifadə edərək). Əgər material :**
**Uyğunsuzdursa, etik deyilsə, təhdid xarakteri daşıyırsa, başqasının gizliliyinə qarşı zorakı və ya müdaxilə edən, ya da narahatçılıq, çətinlik və ya narahatçılıq hissi yaradırsa**
**Başqa bir şəxsi məcbur edərək narahatçılıq vermək, məyus etmək, utandırmaq, qorxutmaq, qıcıqlandırmaq**
**Hər hansı bir şəxsi təqlid etmək, başqa iştirakçının şəxsiyyətindən istifadə edərək və əlaqəsindən istifadə edərək özünü səhv təqdim etmək**
**Bolt tərəfindən istifadəçiyə xüsusi olaraq təyinatl və ya məqsədli olaraq verilmədiyi təqdirdə hər hansı materialın Bolt tərəfindən verildiyi təəssüratını yaratmaq**
**Bolt-un imicinə zərər yetirmək**

**Öhdəliklər**
**Bu kampaniyada iştirak edərək iştirakçılar kampaniyanın qayda və şərtlərini oxduqlarını və razılaşdıqlarını təsdiq etmiş olurlar**
**Fors major hallar yarandıqda Bolt öncədən xəbər vermədən və əlavə nəticələri olmadan kampaniyanı davam etdirməmə hüququna malikdir.**
**Bolt kampaniyayla bağlı istənilən qərarı vermək hüququnu özündə saxlayır, buna təktərəfli olaraq Kampaniya Qayda və Şərtlərinə əvvəlcədən xəbərdarlıq etmədən dəyişiklik etmək də daxildir. Bolt kampaniya ilə bağlı bu kimi qərarları Bolt-un veb saytı, müştəri kommunikasiya kanalları, email və ya digər sosial media kanalları vasitəsilə paylaşacaq**
**Bollt iştirakçı Kampaniya qayda və şərtlərini pozduğu halda iştirakçını əvvəlcədən xəbərdarlıq etmədən kampaniyadan kənarlaşdırmaq hüququnu özündə saxlayır**
**Bolt iştirakçının iştirakının hər hansı 3-cü tərəf subyektlər tərəfindən qarşısının alınmasına görə məsulliyyət daşımır.**

**Məxfilik**
**Kampaniyada Bolt iştirakçının şəxsi məlumatlarını kampaniyanın qalibini müəyyən etmək və elan etmək üçün müvafiq olaraq 11 may 2010-cu il tarixli, № 998-IIIQ fərdi məlumatlar haqqında qanuna uyğun olaraq emal edir.**
**Şəxsi məlumatların email olunmasına yalnız iştirakçı tərəfindən kampaniya çərçivəsində Bolt-a təqdim olunan məlumatlar daxil edilir. (ad, soyad, ölkə və əlaqə məlumatları)**
**Bolt iştirakçının şəxsi məlumatlarını onlayn bulud yaddaş serverləri və digər əhəmiyyətli İT xidmətlər olmaqla Bolt group daxilində olmaqla digər tərəflərlə bölüşə bilər.**
**Bolt iştirakçının məlumatlarını Aİ və ya AİA (Avropa İqtisadi Ərazisi) xarici ilə bölüşdüyü hallarda, bu cür fərdi məlumatların ötürülməsi yalnız Avropa Komissiyası tərəfindən qəbul olunmuş uyğunluq qərarına əsasən və ya standart müqavilə maddələri kimi müvafiq qoruma tədbirləri çərçivəsində həyata keçiriləcəkdir. Qoruma tədbirləri haqqında ətraflı məlumat üçün privacy@bolt.eu ünvanına müraciət etmək mümkündür**
**İştirakçının şəxsi məlumatlarl əldə etmək və düzəlişini tələb etmək, şəxsi məlumatların silinməsini, şəxsi məlumatların emalına limitlərin qoyulmasına, email olunmasına etmək və ya məlumatların ötürülməsinə etiraz etmək hüququ var. İştirakçı əvvəlki razılığa**

**əsaslanan məlumatların emalının qanuniliyinə təsir etmədən, şəxsi məlumatların emal olunmasına verdiyi razılığı istənilən vaxt geri götürmək hüququna malikdir. Gizliliklə bağlı hər hansı həll olunmamış narahatlıqlar qaldıqda iştirakçı məlumatların qorunması üzrə səlahiyyətli orqana şikayət etmək hüququna malikdir.**
**Şəxsi məlumatlarla bağlı sorğuları bu formdan (https://bolt.eu/az-az/privacy/data-subject/) istifadə edərək ünvanlaya bilərsiniz.**
**Bolt iştirakçının kampaniya çərçivəsində əldə etdiyi şəxsi məlumatları 5 aydan gec olmayaraq qalibi elan edənə qədər istifadə edəcək. Bu müddətdən sonra Bolt iştirakçının şəxsi məlumatlarını tamamilə anonimləşdirəcək. Anonimləşdirilmiş və aqreqatlaşdırılmış məlumatlar Bolt tərəfindən tətqiqatlar üçün istifadə oluna bilər.**
**Bolt-un şəxsi məlumatları necə emal etdiyi haqqında ətraflı məlumat əldə etmək üçün https://bolt.eu/az-az/privacy/. Səhifəsində  bizim məxfilik bildirişləri hissəsi ilə tanış ola bilərsiniz.**

**Bolt-la əlaqə saxla**
**Kampaniyanın müddəti ərzində kampaniyanın təşkilinə aid bütün şikayətlər və suallar email vasitəsilə Bolt-a təqdim edilməlidir. Bolt kampaniya müddəti başa çatdlqdan sonra qəbul etdiyi heç bir şikayətin emalını həyata keçirməyəcək.**

**16 dekabr həftəsi**
1-ci yer – S.M.
2-ci yer – S.B.
3-cü yer – O.S.

**23 dekabr həftəsi**
1-ci yer – O.S.
2-ci yer – V.S.
3-cü yer – E.E.